# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA İŞLƏNƏN KOSMONİMLƏRİN TƏDQİQİ

Dahi Azərbaycan şairi və filosofu Nizami Gəncəvi "Xəmsə"si ilə bəşəriyyətin fikir salnaməsində, Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Şairin yaradıcılığı XII əsr Azərbaycan, eləcə də Şərq xalqlarının mədəniyyətini özündə əks etdirən zəngin xüsusiyyətləri ilə seçilən məxəzdir. Bu baxımdan dahi şairin yaradıcılığı bədii dilin, dünyəvi elmlərin, fəlsəfi ideyalarla yanaşı, astronomiya, tibb, nücum, tarix, filologiya, kimya, riyaziyyatın tədqiqi sahəsində ensiklopedik məlumat verir. Farsdilli ədəbiyyatda astronomik adlardan ən çox istifadə etmiş Nizami Gəncəvi onların əsasında bədii əsərlərinin dilini zənginləşdirmişdir. Bununla yanaşı onların spesifik xüsusiyyətlərini də şərh etməklə dövrünün mütəfəkkiri sayılır. Bu nəzərə alınaraq şairin yaradıcılığının dəqiq elmlərlə, o cümlədən fizika, riyaziyyat, astronomiya ilə əlaqələri ilə bağlı tədqiqat əsərləri yazılmışdır. Filologiya üzrə fəlsəfə doktoru K.Quliyevanın "Nizami Gəncəvinin söz xəzinəsindən: "Xəmsə"də işlənmiş kosmonomlər" (Bakı, "Elm və təhsil", 2021, 208) adlı monoqrafiyası da belə tədqiqat əsərlərindəndir. K.Quliyevanın yeni nəşr olunan monoqrafiyası istər mövzu, istər tədqiqat üsulu, istərsə də baxış tərzi ilə yenidir. Müəllifin Nizami yaradıcılığında əksini tapan astronomik adlara münasibəti orijinaldır. Qeyd olunduğu kimi, şairin yaradıcılığında işlətdiyi təşbeh predmetlərində, bədii obrazların yaradılmasında müraciət etdiyi müxtəlif sahələrdən biri də səma və səma cisimləri olmuşdur. Ədəbi dilin lüğət tərkibinin zənginləşməsində eləcə də, xalqın dilinin, tarixinin və coğrafiyasının əsaslı şəkildə tədqiq olunmasında onomastik vahidlər zəngin material verir. Onomastik vahidlərin mühüm bir hissəsini kosmonimlər təşkil edir. Bu nəzərə alınaraq Nizaminin yaradıcılığında işlənmiş səma cisimlərinin adlarını özündə əks etdirən kosmonimlər dilçilik elminin predmeti kimi sistemli şəkildə araşdırılmışdır. Hələ orta əsrlərdən başlayaraq, Şərqin məşhur şərhçi alimlərinin diqqətini onun yaradıcılığının elmliyi cəlb etmişdir. Nizami əsərlərinin tədqiqatçıları hər biri öz dövrünün görkəmli alimi, Şərq fəlsəfəsi və poetikasını, eləcə də dünyəvi elmləri mükəmməl bilən şəxsiyyətlər olmuşlar. Onun yaradıcılığının zirvəsini təmin edən əsas səbəblərdən biri dahi şairin kainatla insanın sıx əlaqəsini, yer səthindən göy cisimlərinə qədər bütün yaradılışın zəncirvari şəkildə bir-biri ilə əlaqədə olduğu, dünyanın vəhdəti ilə bağlı irəli sürdüyü və həllini çalışdığı ictimai problemlərdir. Eyni zamanda onun yaradıcılığının leksikası xalqımızın tarixini, tarixi keçmişini, adət-ənənələrini özündə əks etdirən mədəni sərvətdir. Xüsusilə, fəlsəfi dünyagörüşün islami təfəkkürlə birləşdirilməsi, onun yaradıcılığının elmiliyini özündə əks etdirir. Poeziyasında din, tibb, astronomiya, riyaziyyat, poetika elminə aid terminlərdən geniş istifadə edilmişdir. N.Gəncəvinin yaradıcılığının əlçatmaz zirvəsi, elmi fikirlərin poetik şəkildə ifadə edilməsidir. Bu baxımdan N.Gəncəvinin əsərlərində işlənmiş kosmonimlərin tədqiq edilməsi tarixi leksikologiyanın öyrənilməsi üçün zəngin material verir. Müəllif Nizami yaradıcılığında işlənən kosmonimləri iki qrupa- əksər türk dillərində ümumi olan və başqa dillərdən keçmiş kosmonimlərə ayırmışdır. Əsərin əvvəlində onomastika, astronim, kosmonim kimi terminlərə aydınlıq gətirilmiş və onların xüsusiyyətləri izah edilmişdir. Müəllifin fikrincə, "insanlar astronomiya, astrologiya ilə daha qədim zamanlardan tanış və məşğul olduqlarından, tarixən mənbələrdə işlənmiş Ay, Günəş, gözlə görünən böyük ulduzların adlarını astronim, zaman keçdikcə daha güclü texnoloji cihazlar vasitəsi ilə aşkar edilən göy cisimlərini isə "kosmonim" adlandırmaq olar" (səh.41). Müəllif ümumi prinsipə əsaslanaraq "Xəmsə" də işlənən səma cisimlərini ayrı-ayrı ulduzlar və ulduz qrupları, bürclərə aid, zodiakla bağlı, günəş sistemi səma cisimlərinə aid, kosmos və qalaktika ilə bağlı "kosmonimlər" adı altında qruplaşdıraraq təhlil etmişdir. Bununla yanaşı kosmonimlərin əsas xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün toponimlərlə müqayisə edilmişdir. Yazılır ki, toponimlər yerlə bağlı olduğu kimi, kosminimlər də səmaya bağlıdır. Bir

növ "səma toponimiyasıdır". Kosmonimlər toponimlərdən onunla fərqlənir ki, onların obyektləri (ulduzlar, bürclər və s.) prinsipcə bütün xalqlar üçün eynidir. Onlar ümummilli, ümumxalq və ya beynəlxalq xarakter daşıyır"(səh.47) Qeyd olunduğu kimi kosmonimlər qalaktikanın daha çox dərinliklərində mövcuddur və N.Gəncəvinin göy cisimləri və onların hərəkətləri haqqında verdiyi ətraflı məlumatlar müasir astronomiya elminin inkişafına təkan verir. Çünki səma cisimlərinə ad vermənin çox qədim tarixi vardır. Eramızdan əvvəl II əsrdə yunan və ərəb astronomları bir sıra səma cisimlərinə adlar vermişdir. Astronomların fikrincə, ulduzlara verilən adlar yer kürəsindəki vaxtla və onların gözə göründüyü zaman hansı xarakterik hadisə baş verirsə ona uyğun olaraq verilmişdir. Kosmik cisimlər və onların xarakterik xüsusiyyətlərinə, kainatın kosmik obyektlərinin fərqlənməsi ənənəsinə toxunaraq bir sıra səma cisimlərinin adı o cümlədən ulduzlar, planetlər, kometlər, asteroidlər haqqında N.Gəncəvi yaradıcılığının poetik xüsusiyyətlərinə uyğun olaraq məlumat verilmişdir. Müəllifin araşdırmalarından belə nəticəyə gəlinir ki, kosmonimlər xalq terminologiyasının davamı kimi formalaşmış və sonrakı dövrlərdə səma cisimlərinin qavranılması haqqında qiymətli material verir. Tədqiqatda da Nizami Gəncəvi yaradıcılığında işlənən bir sıra kosmonimlərin izahına xüsusi yer verilmişdir. Çünki şairin əsərlərində səma, səma cisimləri əsasında yaradılmış təşbehlər obrazların yaradılmasında müxtəlifliyi ilə seçilir. Ulduzlar və onların vəziyyətinə görə, insan və onun taleyi ilə bağlı hökm çıxarılarkən astrologiya elminin nailiyyətlərindən istifadə edilmişdir. Bu elmə əsaslanaraq hər bir insanın taleyinin ulduzların təsiri altında olması, onların sağlamlıqlarına təsiri məsələləri izah edilmişdir.

Əsərdə N.Gəncəvidən əvvəl yazılmış bir sıra əsərlərdə kosmonimlərin adlandırılması və onların spesifikası müəyyənləşdirilmişdir. Xüsusilə də Yusif Balasaqunlunun poetik uslubda yazılmış "Qutadqu bilig" əsərində işlənmiş kosmonimlər və onların adlandırılması geniş şəkildə şərh edilmişdir. Tədqiqatda kosmonimlər diaxronik aspektdə təhlil edilərkən şairdən əvvəl yaşayıb-yaratmış M.Kaşğarlı, Y. Balasaqunlunun əsərlərindən, eləcə də canlı xalq danışıq dili və şifahi xalq ədəbiyyatında verilən zəngin məlumatlardan istifadə edilmişdir. Müəllif şairin Yerə ən yaxın olan Aydan başlayaraq, Günəş, Mars, Yupiter, Venera (Zöhrə), Merkuri, Saturn kimi kosmonimlərdən istifadə etməklə müxtəlif metaforlar yaratmasını, göylərin mənzərəsini, kosmosun bədii fəlsəfəsini, planet, bürc və ulduzlar aləmini bəlağətli bir dillə təsvir etməsini zəngin faktlarla araşdırmışdır. Eyni zamanda N.Gəncəvinin nücum elmi haqqında fikirləri, insan taleyinin kainatla, planetlə bağlılığı və onlar haqqında fəlsəfi düşüncələri verilmişdir. Əsərdə qeyd olunduğu kimi, N.Gəncəvinin "Xəmsə"sində küllü-miqdarda onomastik vahidlər işlənmişdir. Onomastik vahidlərdən toponimlər, antroponimlər, hidronimlər işlənmə məqamlarına görə diqqəti cəlb edir. Lakin müəllif şairin yaradıcılığında işlənən kosmonimlər, astronomik və astroloji terminləri təhlil etmişdir. Qeyd olunduğu kimi şair istər astronomiya, istərsə də astrologiya elmini çox gözəl bilmiş, onların yer kürəsinə, eləcə də insanlara hansı dərəcədə təsir göstərdiyini aydın şəkildə şərh etmişdir. Əsərdə bir sıra kosmonimlərin mənşəyi müəyyənləşdirilmişdir. Məsələn, ulduz termini haqqında yazılır: "Ulduz" türk mənşəli söz olub, *yıldız, jildiz, juldiz* və s. kimi müxtəlif fonetik variantlarda müasir türk xalqlarının dillərində işlənməkdədir. Bu söz *sürəyya* kimi ərəb, *sitarə* (setarə) kimi isə fars dilində dilimizə keçərək klassik ədəbiyyatda öz əksini tapmışdır" (səh.93). Bununla yanaşı bu sözlərin sonrakı mərhələlərdə məna dəyişmələri, eləcə də frazeoloji birləşmələrdə işlənmə formaları araşdırılmışdır. Qəhrəman obrazların yaradılmasında, onların talelərinin müəyyənləşdirilməsində bürclərin hərəkətləri xüsusi qeyd edilmişdir. N.Gəncəvi insanın yeniyetməlik, gənclik və qocalıq çağlarını təsvir edərkən, kosmonimlərdən bədii ifadə vasitəsi kimi istifadə etməklə onların əsas xüsusiyyətlərini vermişdir. Bununla yanaşı ayın hərəkət trayektoriyası haqqında məlumat verilir və onun qurumuş xurma ağacının budağı kimi yay şəklinə alması təsvir edilir. Günəşin aya çatmasının qeyri-mümkünlüyü qeyd edilir və onların yəni, ayla-günəşin bir fələkdə fırlanaraq dövrlərinin tamamlanması şərh edilir. *Qoç, şir, tərəzi, dolça* bürclərinin əsas xarakterik xüsusiyyətləri və hərəkət formaları N.Gəncəvidən gətirilən zəngin faktlarla müəyyənləşdirilir. Əsərdə qeyd olunduğu kimi, türk, müsəlman aləmində aypara ulduz rəmzi həmişə müqəddəs sayılmış və zaman keçdikcə islamda

da bir simvola çevrilmişdir. Araşdırmalar əsasında təyin edilir ki, aypara ulduz rəmzi qədim türklərin islamdan öncəki simvolu olmuşdur. Müəllif arxeoloji qazıntılar zamanı əldə edilmiş sikkələrdəki təsvirə əsaslanaraq yazır ki, bəlkə də bu fakt qədim türklərin, şumerlərin nəsli olduğunu sübut edən başlıca dəlildir. Çünki bu şəkillərdə diqqəti cəlb edən ulduzun altı guşəli olmasıdır. Qeyd olunur ki, aypara forması ayı simvolizə etmək üçün qədim dövrlərdən istifadə olunmuşdur.

Əsərdə N.Gəncəvinin istifadə etdiyi bürc adlarının işlənmə formaları və onların daşıdığı mənalar tarixi aspektdə təhlil edilmişdir. Qeyd olunduğu kimi klassik və müasir ədəbiyyatlarda ay hər zaman təcəssüm edilmiş və ondan epitet, təşbeh, metafora, simvol, bədii təzad və s. kimi istifadə olunmuşdur. N.Gəncəvi yaradıcılığında da bu ənənə davam etdirilmiş və ayın kosmik cisim kimi insanların təsəvvürlərində kainatın mərkəzi hesab olunan yerin ətrafında fırlanması bədii təsvirlərdə öz əksini tapmışdır. Nizaminin əsərlərində ayın görünməsi müxtəlif məcazlarla ifadə olunur və onunla bağlı türklərin qədim inancları verilir. Bu inanclar və onların əsas xüsusiyyətləri müxtəlif lüğətlər əsasında təhlil edilmişdir. Bununla yanaşı Günəş, Günəş sisteminin mərkəzində yerləşən ulduzlar, onlardan ayrılan enerji, iqlim və s. haqqında dəqiq məlumatlar verilir. Qeyd edək ki, planetlərin rənglərinə görə adlandırılması, onların əsas xüsusiyyətləri N.Gəncəvinin "Yeddi gözəl" poemasından gətirilən faktlarla şərh edilir. Müəllif planet, səma sözlərinin mənşəyini, müxtəlif dillərdə işlənməsini, eləcə də türk dillərində tarixən adlandırma formalarını vermişdir. Dahi şairin istifadə etdiyi kosmonimlərin etnolinqvistik tədqiqi xalqımızın mifoloji, dini, tarixi, məişəti haqqında zəngin məlumat verməklə yanaşı, Azərbaycan dilinin leksik tərkibinin zənginliyini özündə əks etdirir. Ayrı-ayrı ulduzlar və ulduz qrupları, bürclər, günəş sistemi və səma cisimləri, kosmos və qalaktika ilə bağlı kosmonimlər geniş şəkildə şərh edilmişdir. Monoqrafiyada Nizaminin yaradıcılığında işlənən kosmonimlər və onların adlandırılması, mənşəyi, yaranma üsulları, strukturu, semantikası etnolinqvistik aspektdə sistemli şəkildə tədqiq edilmişdir. Bununla da Azərbaycan və dünya astronomiya elminin Nizami yaradıcılığında gerçəkləşdiyi nəzəri baxış təcrübəsini mənimsəyən müəllif mövcud real bünövrəyə söykənərək nizamişünaslığa dəyərli töhfə vermişdir.

**SAYALI SADIQOVA**
*filologiya elmləri doktoru, professor*